**Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı və 13-cü bəndlərini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, 1, maddə 17, 5, maddə 323; 2002, 5, maddə 236; 2003, 1, maddələr 23, 24, 6, maddə 279; 2004, 7, maddə 505, 8, maddə 598, 10, maddə 761; 2005, 4, maddələr 277, 278; 2006, 2, maddə 64, 12, maddə 1006; 2007, 1, maddələr 3, 4, 2, maddə 68, 5, maddə 439, 6, maddə 560, 7, maddə 712, 8, maddə 756; 2008, 6, maddə 462, 7, maddə 602, 12, maddə 1046; 2009, 6, maddə 402; 2010, 2, maddə 75, 4, maddə 276; 2011, 6, maddələr 471, 476, 7, maddələr 583, 619, 12, maddələr 1096, 1105; 2012, 5, maddə 411, 6, maddə 511; 2013, 5, maddə 472, 6, maddə 625, 11, maddələr 1266, 1307; 2015, 6, maddə 677, 12, maddə 1435; 2016, 5, maddə 836, 6, maddə 1016, 11, maddələr 1761, 1763, 12, maddə 2047; 2017, 2, maddə 155, 4, maddə 523, 5, maddələr 706, 750, 11, maddələr 1935, 1975; 2018, 5, maddə 879, 8, maddə 1672, 11, maddələr 2209, 2225, 12 (I kitab), maddələr 2524, 2534) 158.1.6-cı maddəsinin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 158.1.7-ci maddə əlavə edilsin:

"158.1.7. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununda müəyyən edilmiş hallarda debitor borcların xüsusi hesaba ödənilməsini və orada saxlanılmasını təmin etmək.".

**Maddə 2.** "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, 6, maddə 461; 2007, 5, maddə 436, 11, maddə 1053; 2008, 5, maddə 348; 2009, 12, maddə 948; 2011, 7, maddə 591; 2017, 10, maddə 1773, 12 (I kitab), maddələr 2468, 2527) aşağıdakı dəyişikliklər edilsin:

2.1. Aşağıdakı məzmunda 7.4-cü maddə əlavə edilsin:

"7.4. Daşınmaz əmlakın ləvazimatı olan daşınar əmlaka dair həmin daşınmaz əmlakın ipoteka saxlayanı ilə daşınar əmlakın yüklülük sahibinin tələblərinin ödənilməsi "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən üstünlük hüququ nəzərə alınmaqla həyata keçirilir.";

2.2. 36.1-ci maddədən "o cümlədən" sözləri çıxarılsın və həmin maddəyə "saxlayanlara" sözündən sonra ", habelə "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilən yüklülük sahiblərinə" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 mart 2019-cu il
1535-VQD